**“Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14 (Cild I); 2024, № 1, maddə 19, № 2, maddə 137, № 7, maddə 755, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddələr 4, 7, № 4 (I kitab), maddə 324, № 6, maddələr 524, 525, 527) ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12-ci maddənin birinci hissəsinin “q” bəndi üzrə:

1.1.1. birinci cümləyə “5 il” sözlərindən sonra “(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini, habelə xarici ölkələrin analoji orta ixtisas təhsili müəssisələrini bitirmiş gizir və miçmanlar üçün – 10 il)” sözləri əlavə edilsin;

1.1.2. ikinci cümləyə “müddət” sözündən sonra “tərəflərin razılığı ilə” sözləri əlavə edilsin və həmin cümlədə “5 il, yaxud daha az müddətə uzadıla bilər” sözləri “hər dəfə 5 ilədək müddətə uzadılır” sözləri ilə əvəz edilsin;

1.2. 26-cı maddənin birinci hissəsinin “v” bəndi aşağıdakı redaksiyada verilsin:

“v) gizirlərin və miçmanların həqiqi hərbi xidmətinə – ən azı tam orta təhsilli, azı bir il hərbi xidmət keçmiş əsgərlər, matroslar, çavuşlar, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini bitirmiş hərbi qulluqçular, hərbi xidmətdə olmağın son yaş həddinə çatmamış ehtiyatda olan gizirlər və miçmanlar, 40 yaşınadək ehtiyatda olan əsgərlər, matroslar, çavuşlar, habelə 19 yaşından 40 yaşınadək qadınlar;”;

1.3. 156-cı maddənin “Qeyd” hissəsinə “magistratura” sözündən əvvəl “bakalavriat (əsas (baza ali) tibb təhsili),” sözləri əlavə edilsin;

1.4. 172-ci maddənin birinci hissəsi üzrə:

1.4.1. birinci abzasda “Azərbaycan Respublikasının “Hərbi vəzifə və hərbi xidmət haqqında” sözləri “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının” sözləri ilə əvəz edilsin;

1.4.2. cədvəlin “Hərbi vəzifəlilərin heyəti” sütununun birinci abzasında “, çavuşlar, gizirlər və miçmanlar” sözləri “və çavuşlar” sözləri ilə əvəz edilsin və həmin abzasdan sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| gizirlər və miçmanlar | 35 yaş | 45 yaş | 55 yaş |

1.5. 175-ci maddənin ikinci hissəsinin ikinci abzası üzrə:

1.5.1. birinci halda “iki” sözü “bir” sözü ilə əvəz edilsin;

1.5.2. “beş” sözü “on” sözü ilə əvəz edilsin;

1.5.3. “isə” sözü çıxarılsın;

1.5.4. ikinci halda “dəfəyədək,” sözündən sonra “müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilər hər dəfə iki ayadək müddətə beş dəfəyədək,” sözləri əlavə edilsin.

**Maddə 2.** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56 (Cild I); 2024, № 2, maddə 137, № 4, maddə 363, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddə 4, № 4 (I kitab), maddələr 305, 311, № 6, maddələr 525, 527) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 36.1.3-cü maddəyə “qulluqçular” sözündən sonra “, hərbi xidmətdə olmağın son yaş həddinə çatmamış ehtiyatda olan gizirlər və miçmanlar” sözləri əlavə edilsin və həmin maddədə “hərbi vəzifəlilər (zabitlər istisna olmaqla)” sözləri “ehtiyatda olan əsgərlər, matroslar, çavuşlar” sözləri ilə əvəz edilsin;

2.2. 38-ci maddə üzrə:

2.2.1. 38.1.4-cü maddənin birinci cümləsinə “5 il” sözlərindən sonra “(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini, habelə xarici ölkələrin analoji orta ixtisas təhsili müəssisələrini bitirmiş gizir və miçmanlar üçün – 10 il)” sözləri əlavə edilsin;

2.2.2. aşağıdakı məzmunda 38.2.1-1-ci maddə əlavə edilsin:

“38.2.1-1. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin 150-ci maddəsinə uyğun olaraq əyani təhsil almaqla əlaqədar (vəzifədə saxlanılması mümkün olmadığı hallarda) – təhsil müddətində;”;

2.3. 41-ci maddənin “Qeyd” hissəsinə “magistratura” sözündən əvvəl “bakalavriat (əsas (baza ali) tibb təhsili),” sözləri əlavə edilsin;

2.4. 44.1-ci maddənin cədvəlinin “Hərbi vəzifəlilərin heyəti” sütununun birinci abzasında “, çavuşlar, gizirlər və miçmanlar” sözləri “və çavuşlar” sözləri ilə əvəz edilsin və həmin abzasdan sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| Gizirlər və miçmanlar | 35 yaş | 45 yaş | 55 yaş |

2.5. 45.2.1-ci maddə üzrə:

2.5.1. birinci halda “2” rəqəmi “1” rəqəmi ilə əvəz edilsin;

2.5.2. “beş” sözü “on” sözü ilə əvəz edilsin;

2.5.3. “isə” sözü çıxarılsın;

2.5.4. ikinci halda "dəfəyədək," sözündən sonra "müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilər hər dəfə 2 ayadək müddətə beş dəfəyədək," sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 dekabr 2025-ci il
№ 306-VIIQD